# Bir-birimizə sarılmadan, nəfəsini duymadan vidalaşdıq...

*Vətənpərvər insan, mərd oğul, qəhrəman döyüşçü idi. Müsbət keyfiyyətləri özündə cəmləşdirməyi bacarmışdı. Onu tanıyanlar qəhrəmanım haqqında danışarkən ən xoş sözləri ünvanına söyləyirlər. İgidliyi, cəsurluğu, qorxmazlığı ilə hərbçi yoldaşları arasında da böyük hörmət qazanmışdı. Söhbət vətənimizin bütövlüyü naminə canını fəda edən şəhid kapitan İsmayıl Səmədovdan gedir. Xanımı Bəsti Səmədova ilə görüşüb qəhrəmanımın həyat hekayəsinə nəzər salmaq istədim. Həyat yoldaşı haqqında danışmaq onun üçün böyük şərəf idi. Deyir, şəhid xanımı olmaq ağır olduğu qədər, həm də qürurludur.*



Söhbət zamanı Bəsti xanımın həyat yoldaşı ilə bağlı yazdığı xatirələri vərəqlədim. Oxuduqca göz yaşlarını saxlamaq mümkün deyildi. Sevgi dolu cümlələr ağ vərəqi sanki bəzəmişdi. Toy məclisində görmüşdülər bir-birilərini. Gördüyü andan vurulmuşdu gözəl yarına. Bir müddət onunla əlaqə yaratmağa çalışsa da, alınmayıb. Lakin İsmayılın mehribanlığı, yüksək mədəniyyətə malik olması, xoş rəftarı onların münasibətlərinə işıqlı yol açıb. Beləliklə, sevimli cütlük bir müddət sonra nişanlanırlar. Amma sevgi dolu cütlüyün ilk sınağı hələ toyları olmamış baş verir. Erməni mənfurlarının növbəti təxribatları səbəbindən baş verən Aprel döyüşləri onların toy məclislərinin qurulmasına mane olur: "2016-cı ildə baş tutmuş Aprel döyüşlərinə qədər nikahımız kəsilmişdi, toya sayılı günlərimiz qalmışdı. Necə deyərlər, sən saydığını say, gör fələk nə sayır. Aprelin 1-dən başlayan döyüşlər bizi çox sarsıtdı. Hər gün İsmayıldan xəbər gözləyirdik. Nə səsini eşidə bilirdik, nə də xəbərini ala bilirdik. Bir neçə günlük sükutdan sonra, nəhayət, aprelin 5- dən sonra İsmayıldan zəng gəldi".

Həmsöhbətim deyir, hər gün durmadan axan göz yaşımıza onun səsi sanki bir məlhəm oldu. Sağ-salamat aprel döyüşlərindən qayıtdıqdan sonra aprelin 18-də qız toyumuz baş tutdu. Bu toy şənliyi hər birimiz üçün yaddaqalan keçdi. Həm İsmayıl gələ bilmişdi, həm də hərbi xidmətinin üçüncü ayını başa vuran qardaşımın gəlişi sevincimizə sevinc qatmışdı. Oğlan toyu mayın 7-də keçirildi. Bu toy məclisi daha şən və maraqlı oldu. İsmayılın həmkarları və dostlarının iştirakı məclisimizə xüsusi yaraşıq vermişdi. Hər bir kəsə narahatlıq, təşviş və gərginlik yaşatmış Aprel döyüşlərindən sonra hamı bizim toy məclisində rahatlıq, arxayınlıq, əmin-amanlıq tapmışdı sanki...".

Bəsti xanım deyir, İsmayıl ailədə ikinci övlad və ilk oğlan uşağı idi. Nəsillərində babasının adını daşıdığı üçün onu "Dədəm" deyə çağırırmışlar. Hamının istəklisi, sevimlisi olub İsmayıl: "Ailədə hamıya can yandırar, mehribanlığı və qayğıkeşliyi ilə seçilərdi. Ata-anasına həmişə xüsusi diqqət göstərərdi. Dostlarına doğmaları, ailə üzvləri kimi yanaşardı və biz hər zaman onun sadiq dost olduğunun şahidi olurduq".

İsmayılda vətən sevgisi də xüsusi yer tuturdu. Bu sevgi onun hərbçi olmağında mühüm rol oynayır. Valideynləri onun həkim olmağını arzulasalar da, İsmayıl qəlbində gəzdirdiyi hərbçi peşəsinə daha çox can atır. Məktəbi bitirdikdən sonra arzusunu reallaşdırmaq üçün sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verir və qəbul olunur. Burada təhsil aldığı müddətdə hərbin sirrlərinə mükəmməl yiyələnir. Leytenant rütbəsini aldıqdan sonra təyinatla Mingəçevir şəhərindəki "N" saylı hərbi hissədə xidmət edir. 2011-ci ildə öz ərizəsi ilə Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursuna yazılır. 2011-2012-ci illərdə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində motoatıcı taqım komandiri kursunda, 2014-cü ildən 2019-cu ilə kimi dəfələrlə Gürcüstanda və Türkiyədə yarışlarda və hərbi kurslarda uğurla iştirak edir.

İsmayıl xüsusi təyinatlı qüvvələrdə qrup komandiri təyin olunur. Qısa müddətdə bilik və bacarığı ilə fərqlənir. Bəsti xanım deyir, vətən sevgisinin nə olduğunu hamıya müharibə göstərdi. Əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda 44 günlük Vətən müharibəsində vətən eşqi ilə şəhidlik zirvəsinə ucalmış əsgər və zabitlərimizin qəhrəmanlığı dillərdə dastan oldu: "İsmayılın da bu sırada şərəfli yer tutması heç də təsadüfi deyil. O, pul qabında, hərbi biletinin arasında, bütün lazımlı sənədlərinin içində Xocalı faciəsinin qurbanı olmuş uşaqların şəkillərini, düşmən tapdağı altında olmuş rayonların işğal tarixlərini əks etdirən təqvimi gəzdirirdi. Və bir də XTQ-dən ilk şəhid olan Fikrət Məmmədovun şəklini həmin sənədlərin arasına qoymuşdu".

İsmayıl ailəsilə hərbi şəhərcikdə qaldığı üçün onlar təlimlərə, dərslərə, toplantılara alışmışdılar. Bəsti xanım deyir, bu dəfə burada məskunlaşmağımızın fərqli olduğunu hiss etmişdim: "İsmayıla qorxduğumu, narahat olduğumu bildirdim. Səhər saat 5-də getdi, ancaq çıxış olmadığından bir saatdan sonra evə qayıtdı və bir az dincəlib gedəcəyini bildirdi. Sonuncu dəfə evdən çıxanda uşaqlar yuxudan ayılmışdılar. Qızımızı qoxuladı, öpdü. Oğlumuz yenicə iməkləyirdi, stuldan tutub durmuşdu. Onu başı üzərinə qaldırıb dedi: "Anan, bacın sənə əmanətdir, kişi bala". Bu kəlməsini ölsəm də, unutmaram. Bu sözləri məni təşvişə saldı. Amma İsmayıl məni sakitləşdirməyə çalışdı: "Qorxma, hər şey yaxşı olacaq. Sağ-salamat gələcəyəm". Bu gediş onun evimizdən son gedişi oldu... Qapını örtüb içəri qaçdım. Uşaqları qucağıma alıb pəncərəyə qaldırdım - bu cür adət etmişdik, pəncərədən də sağollaşırdıq. Bunu sonuncu dəfə etdiyimiz ağlıma gəlməzdi. Demə, ailəliklə sonuncu dəfə gülümsəyirdik, sonuncu dəfə vidalaşırdıq... Səhəri cəbhədən gələn ilk döyüş xəbərləri ilə açdıq. Lakin içimdə bir səssizlik, bir sükut hökm sürürdü. Mən ona hamıdan çox inanırdım. Müharibədən salamat qayıdacağına inanırdım. Düşünürdüm, biz belə qala bilmərik. "İsmayıl bizi yarı yolda qoymaz" - deyirdim. Hər dəfə zəng edəndə məni arxayınlaşdırmağa çalışdı, hər şeyin yaxşı olacağına bir daha inandırdı".

İsmayıl hər gün ailəsilə əlaqə saxlayır: "Yaşadığımız hərbi şəhərcikdən kəndə gəlmişdim. Hər gün gələn şəhid xəbərləri məni çox sarsıtmışdı. Çox üzülürdüm. Kəndə gələndən sonra zənglərin sayı azaldı. Bəlkə də doğmalarımızın yanında olduğumuza görə arxayın idi. Bəlkə də artıq əlaqə qurmağa imkanı olmurdu, ya da şəbəkə tutmurdu. Son olan odur ki, biz onun səsini çox az eşidə bildik. Oktyabrın 9-da İsmayıl atasına zəng etdi, çox sevindik ki, səsini eşitdik. Hamı ilə danışdı, mən isə danışa bilmədim. Söndürdük telefonu və rahat olduq ki, salamatdır. On beş dəqiqə keçmədi ki, mənə zəng etdi: "Səni eşitmədim. İstədim səni də eşidim". Darıxdığını dedi. Hər şeyin yaxşı olacağını bildirdi". Bu, İsmayılın ailəsilə son danışığı olur. Oktyabrın 10-da sms yazır, yaxşı olduğunu deyir. Bəsti xanım deyir, bir gün sonra zəngini çox gözlədim: "Çünki İsmayıl özəl günləri unutmurdu - həmin gün bizim nişanımız olan gün idi. Nə zəng, nə də sms gəldi. Atəşkəs elan olunmuşdu deyə, arxayın idim. Eyni kənddə yaşayan anamgilə getmişdim. Qardaşım da hərbçi idi və müharibədə iştirak etdiyi üçün biz daha çox narahat idik - həyat yoldaşı da, qardaşı da ön cəbhədə olan bir kəs evdə rahat dura bilərmi?" Həmin gecə qonşuları Bəsti xanıma zəng edir və yoldaşının yaralandığını bildirir. Ona təsəlli verməyə çalışır. Amma bilmir ki, ömür-gün yoldaşı vətənimizin bütövlüyü uğrunda şəhadətə ucalıb: "Çox narahat yatdım, yuxuda gördüm ki, hər tərəf dağılıb, evlər uçub, daşdaş üstə qalmayıb. Dedilər, bura Füzulidir. Səhər qonşu gəldi və kəndimizə də şəhid gəldiyini söylədi. Çox qorxduq həm qardaşıma, həm İsmayıla görə. Ağlayıb fəryad etdik". Sanki ürəyinə danmış kimi gətirilən şəhidin İsmayıl olduğunu soruşur. Ona dikilən gözlərdən nə baş verdiyini anlayır. Deyir, fəryad qoparsam da, nə eyləsəm də, xeyri yox idi: "Artıq bundan sonra nə baş verdiyi yadımda deyil. Bircə onu xatırlayıram ki, İsmayılımı bayrağa büküb gətirdilər. Üzünü açdım. Bu bizim son görüşümüz oldu. Bir-birimizə sarılmadan, nəfəsini duymadan vidalaşdıqg"

İsmayıl dəfələrlə düşmən hücumlarının qarşısını məharətlə alır. Rəhbərlik etdiyi qrupla döyüş tapşırığını uğurla yerinə yetirərək düşmən qüvvələrini məhv edir. İsmayıl Füzuli, Cəbrayıl, Xocavənd yaşayış məntəqələrinin azad edilməsi uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurur, onların bir neçə döyüş texnikasını və xeyli sayda canlı qüvvəsini məhv edir. Oktyabrın 11-də növbəti əməliyyat tapşırılır onlara. Xocavənd yaxınlığındakı Gorazilli kəndi istiqamətində düşmən arxasına keçərək qoşunlarımızın irəliləməsinə mane olan ermənilərə köməyə gələn dəstəni zəzrsizləşdirir. Və qeyri-bərabər döyüşdə kapitan İsmayıl Səmədov düşmən gülləsindən həyatla vidalaşaraq əbədiyyətə qovuşur.

Peşəkar hərbçi olan kapitan İsmayıl Səmədov III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", III dərəcəli "Qüsursuz xidmətə görə", "Vətən Müharibəsi Qəhrəmanı", ölümündən sonra isə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Döyüş yoldaşları İsmayıl haqqında yalnız xoş sözlər deyir, onunla bağlı xatirələrini həvəslə bölüşürlər. Onun qəhrəmanlığını, igidliyini sözlə ifadə etməyin çətin olduğunu bildirirlər. Bəsti xanım deyir, İsmayıl həm cəsur, bacarıqlı, tələbkar komandir, həm də mehriban və qayğıkeş insan olub: "Hər bir kəsə yaşından və rütbəsindən asılı olmayaraq, xüsusi diqqət və qayğı ilə yanaşıb. Hər qarış torpaq alındıqca, onun gözlərindəki sevinci görmək gərək idi ki, Vətəninə və xalqına hədsiz sevgisinin, hərb sənətinə vurğunluğunun bir daha şahidi olasan. Düşmənlə döyüşə elə can atırdı ki, sanki dünyaya göz açdığı gündən bu torpaqların həsrəti ilə yaşayıb. Döyüş yoldaşları onun əsl zabit keyfiyyətlərinə malik olduğunu deyirlər. İsmayılın komandiri isə onun bütün tapşırıqları vaxtında və qeyd-şərtsiz yerinə yetirdiyini, daim onunla fəxr etdiyini söyləyirdi".



Bəsti xanım deyir, bu həyat çox etibarsız oldu mənim üçün: "Çox arzularımız yarım qaldı. Ondan yadigar qalan iki gül balamız - Nurgül və Mehdi ilə bağlı o qədər arzularımız vardı. Bizi qabaqda necə gözəl günlər gözləyirdig İsmayılın mehribanlığı, qayğıkeşliyi, ailəsinə bağlı insan olması bu sözləri deməyimə əsas verir. Amma nə etmək olarg demək ki, ömrümüzdə bunu da yaşamaq var imişg"

**Elnurə İSAXAN**